# Almalıq



**Rafiq Tağı**

**(Hekayə)**

***Evin qabağında xudmani bir almalıq durur ki, yayda kölgəsi eyvanda gəzər, orda oturanları da özüylə gəzdirər.***

***

***– Nə əcəb indiyəcən ölməmişəm! – bu, Əlimərdan müəllimin süfrə başındakı təzə sözlərindəndi.***

***– Pislər ölmür, arxayın ol! – Rüxsarə arvad onu sancardı.***

***– Dediyin söz özünə də aiddir – dünyanı tutub gedirsən.***

***Canının sulu vaxtı kişiyə gülməli gələrdi ki, bir vaxt o da təqaüdə çıxar, o da baba olar. İstəməyə-istəməyə zamanın dediklərinin hamısını elədi. Ömür səssiz bir şimşək kimi səyriyib ötdü.***

***İndi ayda-ildə bir dəfə ki, görüşürdülər, oğul-uşaqdan utanırdı da, hərçənd heç birindən bir umacağı yoxdu. Sağ olsunlar, sədaları gəlsin!***

Kişi onların nəzərində özünü iflic vuran yerində bilir. Təqaüdçüylə iflic vurmuşun nə vərqi? Həm də bir belə yaşamağı cavankən dünyadan köçmüş tay-tuşundan ayıb sayırdı.

Yaşamalı-yaşamalı adamlara avara tale qismət oldu: paylarına düşən yeganə ölüm hədər getdi. Gör nəyin qurbanı oldular – xəstəliyin.

Onun ölümüsə hələ qalır!

Son macal Əlimərdan müəllimə agah olmuşdu ki, gərək özünü qəfil azar-bezardan gözləyə. Ölümünə hayıfı gəlməlidir. İnsan o vaxt ölməlidir ki, onun ölümü düşmənə də lazım olsun, dosta da. Sən ölərsən, dostun düşməndən qurtular – bu, yaxşı. Ya heç olmasa qoy düşmən şadlığından şıllaq atsın ki, səni öldürüb kiminsə canını qurtardı.

– Canınkı qulluqdur.

Kişisi belə deyəndə elə bil Rüxsarə arvadın başına bir qazan qaynar su ələndərirdilər.

– Vallah, Araz aşığındandır, Kür topuğundan.

– “Yarın bağçasında üç gül açılıb...”

– Oxu, oxu! Nə kefinədi!

– “...Ağ gül, qırmızı gül, bir də sarı gül...”

Bu əsnada arvadı cırnatmaq üçün yay pencəyini çiyninə atırdı, guya ki, küləfirəngidə soyuqlamasın.

Kitabdan, jurnaldan oxuyub ona təzə xörəklər bişirmək öyrədəndəsə, alardı payını:

– Ədə, ayıbdı, ayıb! Kişisən, otur kişi yerində!

– Adam kimi yemək haçandan ayıb sayılır?

– Bizim bir ayağımız gordadır.

– Ola bilər sənin bir ayağın gordadır, mənimki yox.

– Elə səninki də.

“Ölümlə təqaüd – biri yoxluğun üzüdür, o biri – astarı”.

Əlimərdan müəllim tək qalanda üstünə çalağan kimi şığıyan bu fikirdən üşənirdi. Ona görə gedib keçmiş direktorundan dərs istədi.

***– Əşi, – boynu əbədi qalstuklu direktor üzündə sönük-sönük şölələnən təbəssümlə dilləndi:***

***– Sizin cana baxan vaxtınızdır...***

***– Amma sizin cana baxmayan vaxtınızdır! Burada direktorun şöləsi söndü.***

***– Bilsəm təqaüdünüz dolanışığınıza çatmır, deyərdim hə.***

***– Mən diriyəmsə, deməli hələ müəlliməm! Ya, bəlkə, təqaüdə çıxanın sənəti əlindən alınır?!***

***Axır dava-şavayla dərs aldı. İndi həftədə ikicə gün məktəbə gedirdi; bu iki gün üçün qalan günləri hazırlaşırdı.***

***Gah bu köynəyini, gah o köynəyini ütülətdirirdi; hərdən vurub pencəyə-plaşa keçirdi.***

***– Ver, panamanı da ver, – Rüxsarə arvad ona lağ eləyərdi.***

***– Qoca ki, qoca. Elə yorularsan ha!***

– Sən kimə deyirsən! Allaha şükür, tısbağa yerişdə səndən qıvraqdır.

Kişi bir gün damağının çağ vaxtında qarısına dedi:

– Gəl skleroza dair dərmanlardan ataq.

– Onda ağlın artacaq?

– Yox, ancaq hökumət bizə dair dərman buraxır, bizim də vəzifəmiz onu atmaqdır.

– Mən atmıram.

– Atmazsan, çünki elə qızlığından tərssən.

– Sən əhlikef adamsan, o dərman, o da sən.

– Elə qocalanda adam gərək əlini-ayağını uzadıb ölə! Allah özü buyurub, ay insan, deyib, sənə ağıl vermişəm, yaşa.

Təqaüdə çıxalı rəhmətlik atası tez-tez gəlib dururdu gözlərinin qabağında. Kişi təqaüdə çıxmadan – dünyanın bu ləzzətini dadmadan, hərçənd bunda ləzzət adlı bir şey yoxdu, ölüb getmişdi. Ona hörmət üçün hər yerinə girəndə onunsayağı kəlmeyi-şəhadətini dodaqaltı deyirdi. Kəlmeyi-şəhadət qurtaranda Əlimərdan müəllimi fikir çulğayırdı: “Ölüm cəmi-cümlətanı bircə dənədir – mənim ona hayıfım gəlir.

Xəstəlikdən it də ölür, pişik də, toyuq da, göydə ucan quş da. Uzun yaşamaq xəstələnib ölməkdən min pay yaxşıdır. Bircə şərəfli ölüm uzun yaşamaqdan yaxşıdır. Qabaqda şərəfli ölüm gözlənilirsə, uzun yaşamağına dəyər, hərçənd bu, cavankən dünyadan köçmüş yar-yoldaşdan ayıbdır”.

Günlü günlərdə eyvanda uzananda evin dirəklərindən aralıda ağ-ağ buludlu göy görsənir. O göyü elə bil kimsə qələmlə çəkib. Və bir də görürsən bir topa sərçə maili şəkildə yerə şığıdı. Onların bəhsinə toyuqcücə də həmin səmtə cumuşur. Demək, yerə yeməli şey düşüb, kim birinci ora çatsa, onundur.

Buludlardan hündürdə oğlunun uşaqlıqda düzəltdiyi kağız təyyarələrə oxşar bir təyyarə uçur. İraq olsun, dava vaxtları təyyarələr o cür uçur-uçur, bir də gördün bomba buraxdı, elə bil quş zıllayır.

– Eyy, bir bura gəl!

– Nə işdi?

– Qalx yuxarı!

Kişi zəhmlə çağıranda Rüxsarə ləbbeyk susur, bu o deməkdir ki, indicə gəlir. Əvvəl qurumuş paltarları ipdən yığdı. Sonra dən səpdiyi toyuqcücənin arasından özgələri qovaladı, eyvana qalxıb konsertdən sonra özözünə danışan radionu keçirdi.

– Ölümün necəsi yaxşıdır?

– Necə yəni “necəsi?”

– Məsələn, topdan-tüfəngdən, yoxsa naxoşluqdan?

– Naxoşluqdan, – Rüxsarə canını tez qurtarmaq üçün tez də cavab verir.

– Niyə?

– Niyə – oğul-uşaq toplaşır başına, niyə – hamıyla halallaşırsan.

– Bəyənilsin! Gedə bilərsən.

Rüxsarə arvad eyvanın bu başından o başına deyinə-deyinə keçir:

– Allah insanın ağılını alınca canını alsa, yaxşıdır.

Qış qışlığını bildirirdi.

Bir gün ağzı axşama salıb quşbaşı səpələyirdi. Qaranlıq qovuşanda torpağı örtən qar yastı illüminasiya lampası kimi həyəti işıqlandırmağa başladı.

Əlimərdan müəllim gecənin bir aləmində bayıra çıxanda eyvanda xeyli dayandı ki, gözü bu işığa öyrəşsin. Əvvəl ağacların altında xətt-xətt qaralan torpağı gördü. Elə bil bu gecə üzü ağacların kölgəsi düşmüşdü yerə.

Birdən qar fövqündə almalığı bir dəstə yad əskərə bənzətdi. Əskərlər qonşu həyətləri də tutmuşdular. Daldalı içəri girib dolu qoşalüləni sandığın böyründən götürdü.

Zülmətdə Rüxsarənin yatmağı eşidilirdi. Barmağının uçunda yaxındakı dirəyin arxasına keçdi, hərçənd yad əskərlər onu üç-dörd dirək enlilikdə görərdilər.

***Qabaqdakıları nişan alıb tətiyi basanda hində toyuqlar, xoruzlar təşvişlə quqquldaşdılar. Sonra dalbadal atəşin kənd evlərindəki əks-sədası eşidildi. Elə bil ki, qabaq evlərin hər birindən bir atəş açılırdı. Əsgərlərdən, nəinki yıxılan olmadı, heç qımıldanan da olmadı.***

***Rüxsarə arvad paltarını başına atıb geyinə-geyinə səsə çıxdı.***

***- Ədə, bu nə şəbihdir?!***

***Gördü kişinin halı özündə deyil, onu bərk-bərk qucaqladı. Əlimərdan müəllim qan-tər içindəydi, köynəyini sıxsan, suyu damardı. Günçıxan və günbatan həyətlərdəki çaxnaşmanı eşidəndə ağlar səslə çağırdı:***

***- Sizə qurban olum, bir bura gəlin! Başınıza dönüm sizin, tez gəlin!..***